

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

29 aprel 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 16 (3529)


# DƏMİR YUMRUQLA QARABAĞDAN ZƏNGƏZURA

## *İşğaldan azad olunan ərazilərdə iqtisadi inkişafın təməli qoyulur*

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.

Cəbrayıl rayonunun girişində "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısında "İşğal dövründə tamamilə sökülmüş, paslanmış bu lövhəni yenidən bərpa etməklə tarixi ədaləti bərpa etdik", deyən dövlətimizin başçısı azad edilmiş bütün torpaqların, o cümlədən bütün şəhərlərin, kəndlərin bərpa ediləcəyini diqqətə çatdırıb.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak ediblər.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev məruzəsində verilən göstərişlərin icrası üzrə işğaldan azad edilmiş ərazilərdə tikinti-təmir işlərinin davam etdiyini, 5339 kvadratmetr ərazidə hərbi hissənin yaradıldığını, Dövlət Sərhəd Xidmətinin hərbi arsenalının müasir silahlarla daha da zənginləşdirildiyini və silahlanmaya yeni pilotsuz uçuş aparatlarının da daxil edildiyini bildirib. Dövlətimizin başçısına məlumat verilib ki, yeni hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün şərait var.



Hərbi hissə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Ağalı kəndinə gəliblər.

Birinci "Ağıllı kənd" pilot layihəsinin Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etdiyini və bu layihənin icrasının, əsasən, 5 komponent üzrə yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri olduğu barədə Prezident İlham Əliyevə və birinci xanıma məlumat verən kənd təsərrüfatı naziri İnam Kərimov bu layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssislərinin də iştirak edəcəklərini deyib.

Xarici şirkət nümayəndələri ilə videoformatda söhbət edən Azərbaycan Prezidenti Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin, sonra isə Beynəlxalq Hava Limanının təməlini qoyub. Ölkəmizin başçısı Zəngilan rayonunun sakinləri ilə də görüşüb.

Təməlqoyma mərasimində tikilən hava limanının əhəmiyyətindən söz açan dövlət başçımız Zəngilanı təbiətinin və təbii sərvətlərinin Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevirəcəyini bildirib.

Sonra Prezident İlham Əliyev ümumi uzunluğu 124 kilometr və 6 zolaqdan ibarət olacaq Zəngilan-Horadiz avtomobil yolunun təməlqoyma mərasimində iştirak edib.

Erməni vandalizminə məruz qalan Zəngilan məscidinin divarına daş hörən dövlətimizin başçısı mənfur düşmənin etdiyi vəhşiliklərin bütün müsəlman aləminə, islam dininə qarşı cinayət olduğunu bildirib və Ermənistan dövlətinin Azərbaycana qarşı mədəni soyqırımı da törətdiyini vurğulayıb. Bütün tarixi, dini abidələrin bərpa ediləcəyini bildirən Ali Baş Komandan Şuşa şəhərində artıq məscidlərin bərpasına start verildiyini, Ağdam Cümə məscidinin bərpası ilə əlaqədar hazırlıq işlərinin getdiyini bildirib.

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Mincivan qəsəbəsinə yola düşüblər.

Dövlətimizin başçısı erməni işğalçılarının viran qoyduğu Mincivan dəmir yolu stansiyasının binasının yerləşdiyi əraziyə gələrək düşmənin törətdiyi vandalizm haqqında danışıb. Düşmən tərəfindən dağıdılıb, sökülmüş dəmir yolunun yenidən qurulmasına start verildiyini deyən ölkəmizin rəhbəri bu dəmir yolunun Horadizdən Ağbəndə, ondan sonra Zəngəzur dəhlizi ilə Naxçıvan Muxtar Respublikasına qədər uzadılacağını və beləliklə Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcəyini bildirib.

# GƏNCLƏRƏ ETİMAD GÖSTƏRİLİR

## *Polis orqanlarında xidmət etmək arzusunda olanların sıra baxışı keçirilib*



**Aprelin 23-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant olan Post-Patrul Xidmətinin, Əlahiddə Çevik Polis Alayının və Baş Mühafizə İdarəsinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 212 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan 36 nəfəri zəfərlə başa çatan Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən general-polkovnik V.Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasəti gənc nəslin inkişafı, bilik və bacarıqlarını realizə etmələri üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini vermələrini tövsiyə edib.



# Qardaşlığın və dostluğun təcəssümü

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Telefon danışığı əsnasında dövlət başçıları ABŞ Prezidenti C.Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar verdiyi bəyanatını qınayıb və bu qərarın yanlış olduğunu qeyd ediblər. Dövlətimizin başçısı bəyanatı tarixi səhv adlandıraraq qəbuledilməz hesab etdiyini vurğulayıb.

Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu, Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd edib.

Dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin də hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırıb.

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb.***

***Dövlətimizin başçısı aprelin 27-də rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb.***

***Ölkəmizin rəhbəri aprelin 28-də "Boeing Commercial Airplanes" Şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edib.***

# Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətlərinin məlumatı

Dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, təəssüflər olsun ki, bəzi şəxslərin nəzarət postlarından kənar yollarla işğaldan azad olunmuş ərazilərə keçməyə cəhd göstərmələri hallarına hələ də rast gəlinir.

Aprelin 26-da Ağcabədi rayon sakinləri Şahin Verdiyev, qardaşı Aydın və Firdovsi Quliyev nəzarət postlarından kənar yollarla işğaldan azad olunmuş ərazilərə keçməyə cəhd göstərərkən minaya düşmüşlər. Partlayış nəticəsində Ş.Verdiyev hadisə yerində ölmüş, digər iki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilmişlər.

Hadisə yerinə prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu çıxaraq zəruri prosessual istintaq-əməliyyat tədbirləri aparılmış, eləcə də müvafiq ekspertlərin və mütəxəssislərin iştirakı ilə baxış keçirilmişdir.

Faktla bağlı Ağdam rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.7 (qəsdən iki və ya daha çox şəxsi öldürmə) və digər maddələri ilə cinayət işi başlanılmışdır.

İlkin araşdırmalarla mərhum Şahin Verdiyevin bu il martın 30-da işğaldan azad olunmuş ərazilərə keçməyə cəhd edərkən polis əməkdaşları tərəfindən saxlanılması və Ağdam Rayon Məhkəməsinin qərarı ilə 16 sutka inzibati qaydada həbs edilməsi müəyyən edilmişdir.

Vətəndaşlarımızı bu kimi hallardan nəticə çıxarmağa, həyat və sağlamlıqlarını təhlükədə qoyaraq qanunsuz yollarla işğaldan azad edilmiş ərazilərə getməməyə, belə səfərlərdən çəkinməyə çağırırıq.

# Yeni reallıq, dəyişməyən hədəflər

## Daxili İşlər Nazirliyində keçirilən Kollegiya iclası qarşıya mühüm vəzifələr qoyur

**Azərbaycanda ictimai asayişin və təhlükəsizliyin qorunub saxlanılması qarşımızda dayanan ən ümdə vəzifə kimi müəyyən edilib. Ölkəmizin sürətli iqtisadi inkişafına səbəb olan sabitlik və əmin-amanlığın davamlı olması, onu deməyə əsas verir ki, daxili işlər orqanları bu amal üçün öz qüvvəsini əsla əsirgəməyib, əsirgəmir.**

Cinayətkarlığa qarşı mübarizəmizin uğuru beynəlxalq səviyyədə də təsdiq olunan gerçəklikdir və bu, yalnız bölgə ölkələri arasında adambaşına düşən cinayətlərin sayına görə açıqlanan statistik rəqəmlərdə ifadə olunmur. Pandemiyaya qədər əksər beynəlxalq miqyaslı mötəbər tədbirlərin ölkəmizdə keçirilməsi mövcud infrastrukturun əlverişli olması ilə yanaşı, təhlükəsizlik sahəsində güvənilən dövlət statusuna sahib olmağımızdan irəli gəlirdi. Yerli gəlmişkən, hazırda Bakıda "Formula-1" yarışının növbəti mərhələsinə hazırlıqlar aparılır ki, bu kimi yarışlar məhz ictimai asayişi etibarlı qorunan, cinayətkarlığın səviyyəsi minimum həddlərdə olan dövlətlərdə baş tutur. Çünki təhlükəsizliyə zəmanət olmayan ölkələrdə belə tədbirlər bir qayda olaraq keçirilmir, daha doğrusu, heç həmin ölkələrin namizədliyi qəbul olunmur.



Şübhəsiz ki, bu uğurlu nəticə daxili işlər orqanlarında arxayınlıq yaratmır, əksinə məsuliyyəti ikiqat artırır. Nəzərə almaq lazımdır ki, İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni geosiyasi reallıq və pandemiya xidməti vəzifələrin yerinə yetirilməsində yeni gerçəkliklər doğurub. Ölkə boyu cinayətkarlıqla uğurlu mübarizə aparan Azərbaycan Polisi işğaldan azad edilən ərazilərdə də güvənli asayişin təməlini qoyur ki, böyük qayıdışla yurd-yuvasına dönəcək soydaşlarımız, illər öncə olduğu kimi, firavan həyatlarını davam etdirə bilsinlər. Eləcə də karantin rejiminə nəzarət yeni tədbirlərin keçirilməsini şərtləndirir.

Bütövlükdə polisin həyata keçirdiyi tədbirlər birbaşa insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə yönəlib. Ötən həftə Daxili İşlər Nazirliyində videokonfrans formatında keçirilən Kollegiya iclasında nazir, general-polkovnik Vilayət Eyvazov da insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün qarşıda duran vəzifələrin müəyyən edilməsinə xüsusilə diqqət çəkdi. Cari ilin birinci rübünü müsbət qiymətləndirən nazir, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi üzrə tapşırıq və tövsiyələrini verdi, eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən olduğunu xatırlatdı. Nazirin bütün müraciətlərə həssaslıqla yanaşılmasının, cinayətlər nəticəsində dəymiş maddi ziyanın ödətdirilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini qeyd etməsi, əslində, icra ediləcək bu vəzifələrin rəhbərlik tərəfindən xüsusi diqqətdə saxlanıldığının ifadəsidir.

Deməli, hədəf dəyişməyib – nəyin bahasına olursa olsun, insan hüquq və azadlıqlarının müdafiə etmək, təhlükəsizliyi etibarlı qorumaq, vətəndaşlarımızın can və əmlak güvənliyinin ayıq-sayıq keşikçisi olmaq yenə də prioritetdir.

# MÜBARİZLƏRİN AKADEMİYASI

## Polis Akademiyasının komandir və kursant heyəti Birinci Qarabağ döyüşlərində igidlik, şücaət göstəriblər

**Bu il artıq bir əsr olur ki, Daxili İşlər Nazirliyinin Polis Akademiyası cinayətkarlıqla mübarizə aparan polisin yüksək nəzəri və praktiki biliklərə malik əməkdaşlarla komplektləşdirilməsini həyata keçirir. 1921-ci ildə sıravi və kiçik komandir heyəti hazırlayan milis məktəbi kimi yaradılsa da, bu gün peşəkar polis kadrlarına olan tələbatın ödənilməsi ali təhsil müəssisəsi statusuna yüksəlmiş bu təhsil ocağının üzərinə düşür.**

Akademiyanın professor-müəllim heyəti cinayətkarlığa qarşı qətiyyətli mübarizənin, insan hüquq və azadlıqlarının etibarlı qorunmasının elmi-nəzəri əsaslarını kursantlara öyrətməklə, bütövlükdə hüquqi dövlətin güclü təməlini formalaşdırır. Çünki polisin təhsil ocağı, ilk növbədə hüquqları qoruyan, qanunların aliliyinin keşiyini çəkənlərin təhsil müəssisədir və buna görə də insan haqları ideyasının inkişafına əhəmiyyətli töhfə verir. Hüquqlara qəsd edənlərin qarşısında dayanan polis zabitləri məhz Polis Akademiyasında müsəlləh dövlət qulluqçusu kimi yetişirlər. Onlar azadlıq və qanunlar qarşısında bərabərliyin qorunduğu cəmiyyətimizdə vətəndaşların təhlükəsiz yaşamaq hüquqları ilə yanaşı, mülkiyyət hüquqlarının da etibarlı təmin olunması üçün təhsil alırlar.

Polis Akademiyasının ölkəmizin həyatında, tarixində tutduğu mühüm rolu onun həm ölkə daxilində, həm də xaricdə reytinqini yüksəldir. Ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında abituriyentlər arasında ciddi rəqabət yaşanır və yüksək keçid balı ilə qəbul aparılmaqla, gələcək polis əməkdaşlarının daha hazırlıqlı abituriyentlər arasından seçilməsi təmin olunur. Buna görə də Akademiyanın kursantları yüksək bilik və vətənpərvərlik hisslərinə malik gənclər olur. Məlumat üçün qeyd edək ki, təhsil ocağının komandir və kursant heyətinin Birinci Qarabağ döyüşlərində sərgilədiyi igidlik və şücaət bu hisslərin bariz təcəssümü idi.

Beynəlxalq universitetlərlə əməkdaşlıq isə Akademiyanın qarşılıqlı əlaqələrinin inkişafına töhfə verməklə yanaşı, beynəlxalq təcrübənin tətbiqinə də yeni imkanlar yaradır. Pandemiya bir çox sahədə çətinlik yaratsa da, müasir texniki imkanlardan yararlanaraq Akademiyanın müəllim və kursantları beynəlxalq tədbirlərdə, elmi konfranslarda, seminarlarda iştirak edirlər.

Bu yaxınlarda Volqoqrad Dövlət Universitetində "Rəqabət qabiliyyətli sahibkarlıq mühitinin hüquqi təminatının ağıllı texnologiyaları" mövzusunda onlayn formatda keçirilən dəyirmi masada Belarus, Rusiya və Qazaxıstan respublikalarının müxtəlif ali təhsil müəssisələrinin qabaqcıl hüquqşünas alimləri ilə fikir mübadiləsi aparılıb. Eləcə də Beynəlxalq Qırmızı Xaç Komitəsinin və ölkəmizdəki nümayəndə heyəti ilə DİN-in Polis Akademiyasında keçirilən görüşdə əməkdaşlıq imkanları nəzərdən keçirilib, birgə gələcək fəaliyyət müzakirə edilib.



Ukrayna DİN-in Odessa Dövlət Universiteti ilə əlaqələr də yüksək səviyyədədir. Bu universitetin elmi-pedaqoji kollektivi və kursantları üçün "Azərbaycan daxili işlər orqanlarının fəaliyyətində müasir üsullarla ictimai asayişin qorunması" mövzusunda keçirilən tədbirdə əməkdaşlarımız tərəfindən tabel silahından istifadə, polis zabitlərinin psixoloji dayanıqlığı, kadr hazırlığı, daxili işlər orqanlarında gender, həmçinin işğaldan azad edilən ərazilərdə ictimai təhlükəsizlik məsələləri barədə dinləyicilərə ətraflı məlumat verilib.

Polis Akademiyasında müəllim heyətinin pedaqoji məharətinin yüksəldilməsi qarşıya qoyulmuş əsas vəzifə sayılır, ölkə daxilində universitetlərlə də təhsilin inkişafı, maddi-texniki bazanın möhkəmləndirilməsi, müəllimlərin ixtisas və peşəkarlıq səviyyələrinin artırılması üçün qarşılıqlı əlaqələr qurulur. **Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanovun** Naxçıvan Müəllimlər İnstitutu ilə yaradılan münasibətlər barədə danışarkən, qeyd etdiyi kimi, bu cür əməkdaşlıq təhsil prosesində daha dərin və hərtərəfli bilik, bacarıq və vərdişlər qazanılmasına fayda verir.

Akademiyanın vaxtaşırı olaraq, "Polis" qəzetində yerləşdirilən elanları təhsil ocağına müxtəlif ixtisaslı kadrların cəlb edilməsinə xüsusi diqqət ayrıldığını göstərir. Son sayımızda verilən müvafiq elan da kursantlara yüksək bilik və bacarıqlar aşılayan müəllim heyətinin komplektləşdirilməsinə yönəlib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# POLİSDƏN DAHA BİR TƏDBİR

Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş, lakin minalardan tam təmizlənməmiş ərazilərə icazəsiz keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində də tədbirlər davam etdirilir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Xocavənd RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş növbəti tədbirlər zamanı rayon ərazisinə qanunsuz daxil olan 4 nəfər saxlanılıb. Araşdırmalarla onların Beyləqan rayon sakinləri Turqut Əsədov, Fərid Məmmədzadə, Əli Məmişov və Muxamed Abdullayev olduğu müəyyən edilib.

Həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb və 10 sutka inzibati qaydada həbs ediliblər.

# Təbiətin də mühafizəsi polisin diqqət mərkəzindədir

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Təmiz hövzələr" aksiyası çərçivəsində növbəti tədbir Şəmkir su anbarında keçirilib.

Nazirliyin Ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Səyyarə Məmmədova bildirib ki, aksiyaya Azərbaycan Həvəskar Balıqçılar İttifaqının əməkdaşları da qoşulub.

"Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin, Su Nəqliyyatında Polis İdarəsinin, Azərbaycan Həvəskar Balıqçılar İttifaqının əməkdaşlarının və ekokönüllülərin iştirak etdiyi aksiya çərçivəsində Şəmkir su anbarının 15 kilometrdən artıq sahəsi sintetik torlardan və plastik tullantılardan təmizlənib.

Aksiyanın keçirilməsində məqsəd ölkənin su hövzələrində nəzarət tədbirlərini intensivləşdirmək, brakonyerliklə mübarizəyə daha geniş kütləni cəlb etməklə balıq ehtiyatlarının çoxalmasına nail olmaqdır".

S.Məmmədova bildirib ki, "Təmiz hövzələr" aksiyası çərçivəsində yığılmış sintetik torlar və plastik tullantılar təkrar emala göndərilib.

*Natiq Abdullayev,*
*polis mayoru*

# Mirzə Cəlilsayağı

**Bir anlıq təsəvvür edin ki, İngiltərədə ingilisin biri karantin rejimini pozduğuna və tibbi maska taxmadığına görə onu cərimələmək istəyən polisi görəndə özünü yerə çırpıb Azərbaycan dilində qışqırır: "Ay haray, kömək edin, polis məni cərimələyir"...**

Təsəvvür etmək bir yana, bunu düşünmək ağlınızın ucundan belə keçməz, bilirəm. Demirəm ki, ingilisin fantaziyası bizdən zəifdir və o, çıxış yolu kimi anındaca nəsə fikirləşməyə bilməz.

Hər bir canlı dara düşəndə mütləq özünümüdafiə imkanlarını sözsüz ki, işə salır.

Elə bugünlərdə soydaşımız tibbi maska taxmadığına görə ona cərimə yazmaq üçün yaxınlaşan polis əməkdaşını, eləcə də ətrafdakıları heyrətləndirdi.

İnanıram ki, onun bu "məharəti" hələ bir xeyli müddət yaddaşlardan silinməyəcək.

Guya xarici ölkə vətəndaşıdır və diqqət çəksin deyə "I can't breathe" (nəfəs ala bilmirəm) qışqıran vətəndaşımızın bu hərəkətini görəndə yadıma Mirzə Cəlil düşdü. "Anamın kitabı" sətir-sətir gözlərimin önündə canlandı.

Etdiyin qayda pozuntusuna görə əcnəbi olmağa nə gərək vardı? Öz ana dilində səhvini etiraf etmək çoxmu çətin idi?

Vətəndaşımızın yalnış hərəkəti ölkəmizin də imicinə ziyan gətirə bilərdi, əgər polis məsələyə aydınlıq gətirməsəydi...

Milli kimliyimizin, kökümüzün, tariximizin bizi istəməyən güclərin hədəfində olduğu bu zor günlərdə etdiyimiz hər hərəkətə, dediyimiz hər sözə diqqət etməliyik. Etməsək, onda bizdən sonra gələnlərin içindən Mirzə Cəlillər, Sabirlər, Üzeyir bəylər yetişib "Ölülər"i, "Tərpənmə, amandır, bala, qəflətdən ayılma" kimi ağıtları halımıza yana-yana dövrümüzə uyğun yenidən yazacaqlar.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Sürücülər və piyadalar üçün

## Qaydalara riayət etmək hər birimizin borcudur

**Yolu keçmək istəyən ana ilə iki azyaşlını maşın vurdu. Gənc qız avtomobil qəzası zamanı həyatını itirdi. Son günlər baş verən yol-nəqliyyat hadisələri zamanı həyatını itirənlərin sayı mövzunu diqqətdə saxlamağın vacibliyini bir daha xatırlatdı.**

Baş Dövlət Yol Polisi İdarəsi əməkdaşları tərəfindən görülən qabaqlayıcı tədbirlərə, vətəndaşlar arasında aparılan maarifləndirmə işlərinə baxmayaraq, qəzalar zamanı ölənlərin statistikası üzücü rəqəmlərlə müşahidə olunur.

Mövzunun aktuallığını nəzərə alıb kiçik bir araşdırma apardıq. Təhlillər göstərir ki, qeydə alınmış yol-nəqliyyat hadisələri ötmə və qarşıdan gələn nəqliyyatın yo-



luna çıxma, yüksək sürət, yolayrıclarını keçmə qaydalarının pozulması, nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən baş verir. Gündüz vaxtı piyadaların ölümü ilə müşahidə edilən yol qəzaları isə daha çox piyadaların şəxsi məsuliyyətsizliyinin, diqqətsizliyinin, eləcə də yolu təyin olunmamış yerdən keçmələrinin nəticəsidir. Qeyd edək ki, 2021-ci ilin 3 ayı ərzində respublika ərazisində qeydə alınmış yol-nəqliyyat hadisələrində 125 nəfər həlak olub, 370 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti alıb. Yol-nəqliyyat hadisələrin növləri içərisində piyadaların vurulması zamanı 49 nəfər ölüb, 99 nəfər isə yaralanıb.

Piyadaların yolun bir tərəfindən o biri tərəfinə keçmək məsələsinə toxunan mütəxəssislər bəzi sadə qaydalara riayət olunmasının vacibliyini qeyd edirlər. Yəni piyada bilməlidir ki, "mənə bura lazımdır" deyə yolun bir tərəfindən o biri tərəfinə keçmək son dərəcə təhlükəlidir və ona həyatı bahasına başa gələ bilər. Ona görə də yolu yalnız qaydalarda göstərilən üsullara və şərtlərə riayət etməklə keçmək olar. Sürücülər isə nəzərə almalıdırlar ki, yolda hərəkət qaydasını pozmuş piyada maneə sayılır. Maneəni görmüş sürücü qəzanın qarşısını almaq üçün sürəti azaltmalı, hətta avtomobili dayandırmalıdır. Dünyanın hərəkət mədəniyyəti yüksək olan ölkələrində yolun hərəkət hissəsində piyada göründükdə bütün nəqliyyat axını dayanır ki, həmin məsuliyyətsiz piyada yolu keçsin. Gecə vaxtı isə xüsusilə diqqətli olmaq lazımdır. Yeri gəlmişkən, Baş Dövlət Yol Polisi İdarəsi aprel ayının 26-dan may ayının 3-dək "Piyadalar, diqqətli olun!" şərti adı altında hərəkətin təhlükəsizliyi həftəliyini keçirir. Tədbir çərçivəsində piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasına qarşı nəzarət-profilaktiki tədbirlərin artırılması ilə yanaşı, hərəkət marşrutlarında yol şəraitinin müayinə olunması, müvafiq yol nişanlarının qoyulması, nişanlanma xətlərinin çəkilməsi və ya onların yenilənməsi, eləcə də ölkədə mövcud olan sanitar-epidemioloji vəziyyət nəzərə alınmaqla kütləvi informasiya vasitələri və ictimai təsisat-




larla birgə əhali arasında maarifləndirmə və təbliğat-təşviqat işinin canlandırılması nəzərdə tutulur.

Keçirilən tədbirlərin, görülən işlərin məqsədi vətəndaşları baş verə biləcək bədbəxt hadisələrdən qorumaq, onların mənzil başına sağ-salamat çatmasını təmin etməkdir. Lakin bu işdə təkcə, asayiş keşikçiləri deyil, həm də vətəndaşlar özləri yol hərəkəti iştirakçısı kimi məsuliyyətlərini anlamalı, qoyulan qayda-qanunlara riayət etməli, polis əməkdaşlarına yardımçı olmalıdırlar.

*Əlizadə T.*

# Asayiş keşikçisi, "Əməkdar idman ustası"

## Uğura aparan yol gərgin məşqlərdən keçir

**İdmanın ümummilli hərəkata çevrilməsi, inkişafı gələcək nəslin sağlam, vətənpərvər ruhda böyüməsinə xidmət edir. Zərərli vərdişlərdən gələcəyimizi və gəncliyimizi uzaqlaşdırmağın yeganə yolu isə onların təhsilə və idmana istiqamətləndirilməsidir. Sıralarımızda xidmət edən, adı ölkəmizdə və dünyanın ən mötəbər idman kürsülərində fəxrlə çəkilən həmkarlarımızın uğur hekayəsi gənc nəslə örnəkdir. Hər anı təhlükə ilə üzbəüz olan polisin bayrağımızın bayraqlar, imzamızın imzalar içində tanınması üçün necə böyük fədakarlıqlar nümayiş etdirməsinin də hər birimiz şahidi olmuşuq.**

**Onlardan biri də DİN Baş Mühafizə İdarəsinin Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin mühafizəsi üzrə mühafizə şöbəsinin polis nəfəri, polis baş serjantı Hikmət Hacıyev-dir.** Yeri gəlmişkən, qeyd edək ki, o, aprelin 21-də Azərbaycan Kikboksinq Federasiyasının rəhbərliyi tərəfindən Milli Komandanın Böyük məşqçisi təyin edilib.



H.Hacıyev 21 iyul 1975-ci ildə Yardımlı rayonunun İsaqala kəndində doğulub. Uşaq yaşlarından idmana olan həvəsi onun yolunu DİN-in İdman Cəmiyyətindən salıb. Peşəkar idman karyerasına başlayan həmkarımız həqiqi hərbi xidmətdə olarkən artıq bir neçə uğura imza atıb. 1999-cu ildən daxili işlər orqanları sıralarına qoşulduqdan sonra isə idman karyerasında yüksəlişlər biri-birini əvəz edib. Göstərilən diqqət və qayğını, yerli və beynəlxalq yarışlara hazırlıq zamanı yaradılan şəraiti DİN rəhbərliyinin idmançı əməkdaşlara olan rəğbətinin bariz nümunəsi kimi dəyərləndirən həmkarımız ötən illər ərzində ona olan ümidləri doğruldub. Döyüşçü karyerasında dəfələrlə Respublika çempionu titulunu qoruyub saxlayıb. Eləcə də Macarıstanda, Slovakiyada veteranlar arasında keçirilən dünya kuboku və Avropa yarışında 3-cü yerə sahiblənib. Bu uğurlarına görə Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən "Fəxri fərman"larla mükafatlandırılıb.

"Əməkdar idman ustası", "Əməkdar məşqçi", "Bədən tərbiyəsi və idman işçisi" kimi fəxri adları daşıyan həmkarımız ayrı-ayrı illərdə Gənclər və İdman Nazirliyi, Azərbaycan Kikboksinq Federasiyası tərəfindən Respublika üzrə "İlin məşqçisi" seçilib.

Polisdə xidmətin peşəkar idman karyerasına təsirindən danışan həmsöhbətim döyüşlər zamanı daha təmkinli, daha intizamlı davranmasında, hətta məğlub duruma düşərkən belə özünüidarəetmə xüsusiyyətinin saxlanılmasında əhəmiyyətli rol oynadığını dedi.

O, yetirmələrinin uğurlarından da söz açdı:

"Yetirmələrim dünya, Avropa, Respublika çempionatlarında 15 dəfə birincilik kuboku qazanıblar. Milli Komandanın kapitanı, Prezident mükafatçısı olan Rəmal Aslanov 2019-cu ildə Bosniya və Herseqovinada keçirilən "Vako" üzrə dünya çempionatının qalibi olub. İyunun 15-də Belqradda baş tutacaq beynəlxalq peşəkar döyüşə hazırlaşır".

"Polis" olaraq biz də həmkarımıza və onun yetirməsinə Vətənə daha bir kubokla dönmələrini arzulayırıq.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Polis intiharın qarşısını aldı

Aprelin 27-də Yevlax şəhər avtovağzalının yaxınlığında yerləşən mehmanxanada intihara cəhd etmək istəyən şəxsi ərazidə xidmətdə olan polis əməkdaşları fikrindən daşındıra biliblər.

Binadan özünü ataraq həyatına son qoymaq niyyətində olan 25 yaşlı rayon sakini Dilavər Xəlilovla profilaktiki söhbətlər aparılıb və o, yaxınlarına təhvil verilib.

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş K.Hüseynov Binəqədi rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 29 qramdan artıq heroin, 19 qramdan artıq metamfetamin aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun yaşadığı mənzilə baxış zamanı oradan əlavə olaraq 12 kiloqram 135 qram heroin, 2 kiloqramdan artıq metamfetamin və 868 qramdan artıq tiryək götürülmüşdür.

◆◆◆

**Sabunçu RPİ 42-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Ağdam rayon sakini, əvvəllər məhkum olunmuş H.Musayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 260 qramdan artıq, avtomobilindən isə 1 kiloqram 100 qram heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini X.Vəlişov Sabunçu rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 4 kiloqram 580 qram heroin və 3 qram metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Xəzər RPİ 1-ci PŞ və Əlahiddə Çevik Polis Alayı** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisindəki 13 evdən pul, televizor, qaynaq aparatı,




kombi, lambrin, elektrik lampası, təmir-tikinti alətləri, su mühərriki, inşaat materialları, xalça, naqil, velosiped, məişət əşyaları, hava kompressoru və generator oğurlamaqda şübhəli bilinən Yevlax rayon sakini, əvvəllər məhkum olunmuş İ.Ağamirzəyev saxlanılmışdır.

◆◆◆

**Suraxanı RPİ 33-cü PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakinləri C.Abdullayev, F.Kulmanov və S.İsmayılov saxlanılmışdır. Şəxsi axtarış zamanı onlardan ümumilikdə 1 kiloqram 964 qrama yaxın heroin, 239 qramdan artıq metamfetamin və 9 qrama yaxın tramadol aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Ağdam RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 5-də rayon ərazisindəki mağazaların birindən 20 min manat dəyərində 91 ədəd mobil telefon oğurlamaqda şübhəli bilinən Ağcabədi rayon sakini R.İsmayılzadə saxlanılmışdır. Abşeron RPİ-nin əməkdaşları ilə birgə davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə qrupun digər üzvi, Başqərvənd kənd sakini E.Məmmədov da saxlanılmışdır.

◆◆◆

**Xızı RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Gilazi qəsəbə sakini, əvvəllər məhkum olunmuş M.Əliyarov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan "AKMS" markalı avtomat silahı, 2 patron darağı və 19 patron götürülmüşdür.

# Dünyanın polis muzeyləri

***Skotland Yard muzeyi (Böyük Britaniya)***

Bəzən “Qara muzey” də adlandırılan “Skotland Yard” 1875-ci ildə açılıb. Cinayətkarlardan müsadirə edilən alətlərin ekspert-kriminalistlərin tədris proqramına daxil edilməsindən sonra, polis zabiti Randall və müfəttiş Nimes ekspozisiya təşkil etmək fikrinə düşüblər. Beləcə, ilk polis muzeyi yaranıb.

***Federal Polis muzeyi (Argentina)***

Dünyada ikinci, Latın Amerikasının isə ən qədim polis muzeyi 1899-cu ildən Argentinada fəaliyyətə başlayıb.

***Stokholm Polis muzeyi (İsveç)***

Stokholm Polis muzeyinə gələnlər hüquq mühafizə orqanlarının əməkdaşlarının işinin müəyyən tərəfləri haqqında məlumat almaqla yanaşı, polis olmaq şansı da qazanırlar. Belə ki, "cinayət yerini" yoxlamaqla bərabər, polis uniforması da geyinə bilərlər.

***Nyu-York City Polis muzeyi (ABŞ)***

“New York City” Polis İdarəsi Amerikada çox məşhurdur. Bu muzeydə polisin 1845-ci ildən bəri keçdiyi xidmətdən bəhs edən zəngin eksponatlar kolleksiyası var. Orada müxtəlif dövrlərə aid formalar, silahlar, xüsusi texnika, fotoşəkillər və zamanında səs-küyə səbəb olan hadisə yerlərin-









dən götürülmüş maddi sübutlar sərgilənir. Eyni zamanda, xüsusilə ağır cinayətlərin açılmasında fərqlənən əməkdaşların jetonları da nümayiş olunur.

***Hong Kong Polis muzeyi (Çin)***

Cinayətkarlıqla mübarizənin tarixinə həsr edilmiş Hong Kong Polis muzeyi 1978-ci ildə açılıb.

***Vankuver Polis muzeyi (Kanada)***

1986-cı ildə fəaliyyətə başlayıb və onu qeyri-kommersiya təşkilatı olan Vankuverin Tarixi Polis Cəmiyyəti qurub. Hazırda 900-ə yaxın üzvü var. Əksəriyyəti isə təqaüddə olan keçmiş hüquq mühafizə orqanlarının əməkdaşlarıdır. Bu gün Vankuver polisindən bəhs edən təxminən 20 min fərqli eksponat var. Muzey bir çox maarifləndirici proqramların təşəbbüskarıdır.

***Prefektural Polis muzeyi (Fransa)***

1909-cu ildə Parisdə yaradılan Polis muzeyi hüquq mühafizə orqanlarında polis leytenantı rütbəsinin təsis olunduğu XIV Lüdovik dövründən günümüzə qədər tarixi bir yol keçib. Ənənəvi forma və silah kimi eksponatlardan başqa, muzeydə müxtəlif inqilablar dövrünün fərmanları və afişaları nümayiş olunur. Xüsusən gilyotin diqqət çəkir. Ədəbiyyat həvəskarları burada tarixdə səs-küy salan cinayətləri faktoloji təsvir edən Aleksandr Dümanın "Zəhər işləri" ("Məşhur Cinayətlər") və "Kraliçanın boyunbağı işləri" ("Kraliçanın Boyunbağı") əsərləri ilə də tanış ola bilərlər.

***Porirua Polis muzeyi (Yeni Zelandiya)***

Yeni Zelandiya Polis muzeyinin rəsmi açılış tarixi 1908-ci il hesab edilsə də 1996-cı ilə qədər geniş ictimaiyyət üçün bağlı qalıb. Sərgi gələcək hüquq mühafizə orqanlarının əməkdaşlarını maarifləndirməklə yanaşı, ziyarətçilərə bu gün nə üçün insanların Yeni Zelandiya Polisinin sıralarına qoşulduğunu izah etmək məqsədi daşıyır.

***Ankara Polis muzeyi (Türkiyə)***

Türkiyənin silah-sursat, polis geyimləri və tarixi sənədlərin nümayiş etdirildiyi ilk Polis muzeyi bugünlərdə Ankarada açılıb. Sultan Əbdülməcidin dövründən günümüzə qədər olan 176 illik polisin tarixini əks etdirən muzeydə eksponatlar xronoloji ardıcıllıqla sərgilənir. Polis muzeyinin yaradılması 1911-ci ildə planlaşdırılıb, 1917-ci ildə müvafiq qərar da qəbul edilib, lakin Birinci Dünya müharibəsi bu işin təxirə salınmasına səbəb olub.

*Hazırladı: Ruslan Vəliyev*

# DAXİLİ İŞLƏR ORQANLARINDA XİDMƏT EDƏN ORTA VƏ BÖYÜK RƏİS HEYƏTİ ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!

**Daxili İşlər Nazirliyinin Polis Akademiyasında böyük rəis heyəti vəzifələrinin müvafiq ixtisaslı kadrlarla komplektləşdirilməsinin vacibliyini nəzərə alaraq, aşağıda göstərilmiş vəzifələrdə xidmət etmək istəyən və qeyd olunan şərtlərə uyğun gələn əməkdaşların 10 gün ərzində Baş Kadrlar İdarəsinə müraciət etmələri tövsiyə olunur.**

## *Vakant vəzifələr və bu vəzifələrə təyin olunmaq üçün tələb olunan şərtlər:*

**1.“Dövlət və hüquq nəzəriyyəsi”, “Daxili işlər orqanlarında inzibati fəaliyyət”, “Daxili işlər orqanlarında əməliyyat-axtarış fəaliyyəti”, “Mülki hüquq”, “Cinayət hüququ”, “Cinayət prosesi” və “Kriminalistika” kafedralarında müəllim:**

-Bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini hüquq ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**2.“İctimai elmlər” kafedrasında müəllim:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini humanitar və sosial istiqamətlər, tarix və ictimaiyyət ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**3.“Hərbi” kafedrada müəllim:**

-Bu vəzifəyə hərbi təhsil müəssisələrini yaxud dövlət ali təhsil müəssisələrini hüquqşünas və ya hərbi ixtisas istiqamətləri üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**4.“Dil hazırlığı” kafedrsında müəllim:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini ingilis dili ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**5.Beynəlxalq əməkdaşlıq bölməsində inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini xarici dil və sinxron tərcümə ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**6.Təchizat şöbəsində silah üzrə baş inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hərbi, silahların robototexnik sistemləri, cihazqayırma istiqamətləri üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**7.Şəxsi heyətlə iş üzrə şöbədə baş inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, humanitar və sosial istiqamətlər üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**8.Şəxsi heyətlə iş üzrə şöbədə psixoloq:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini psixologiya və klinik psixologiya ixtisası üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**9.Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsində baş inspektor:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial istiqamətlər üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**10.Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsində elmi katib:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial istiqamətlər üzrə bitirmiş və elmi dərəcəyə malik əməkdaşlar tələb olunur.

**11.Əyani fakültədə kurs rəisi və kurs rəisinin müavini:**

-Bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif və hərbi hazırlıq istiqamətləri üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**12.Tədris-metodiki şöbədə baş inspektor, inspektor və metodist:**

-Bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, kompüter riyaziyyatı, avtomatika və idarəetmə, informatika və hesablama texnikası, humanitar və sosial istiqamətlər üzrə bitirmiş əməkdaşlar tələb olunur.

**13.Tədris-metodiki şöbədə texniki vasitələrin istismarı qrupunun baş inspektoru:**

-Bu vəzifəyə dövlət ali təhsil müəssisələrini kompüter riyaziyyatı, avtomatika və idarəetmə, informatika və hesablama texnikası, telekommunikasiya istiqamətləri üzrə bitirmiş, Java, C++ və Delphy proqramlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri haqqında biliyə malik olan əməkdaşlar tələb olunur.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-92-21; (012) 590-97-52; (012) 590-93-51.**

# “Hüquqi şəxsin cinayət-hüquqi statusu”

***Hüquq elmimizə daha bir töhfə işıq üzü gördü***




“Hüquqi şəxsin cinayət-hüquqi statusu” adlı dərs vəsaiti Polis Akademiyası ilə Bakı Dövlət Universitetinin birgə layihəsi çərçivəsində hüquq elmləri doktorları, professorlar Mahir Əhmədov və Şəhla Səmədovanın elmi redaktorluqları ilə ərsəyə gəlib. Respublikamızda bu sahədə ilk tədqiqat işi olan dərs vəsaitində hüquqi şəxsin mülki-hüquqi statusu, beynəlxalq cinayət hüququnda və xarici ölkələrin (Fransa, Böyük Britaniya, ABŞ, Avstraliya, Hindistan və s.) cinayət hüququnda hüquqi şəxslərin cinayət məsuliyyəti institutu, eyni zamanda, hüquqi şəxsin Azərbaycan Respublikasının cinayət məsuliyyəti institutunda sosial və hüquqi elementlərin qarşılıqlı əlaqəsi və cinayət hüququnda hüquqi şəxslərin məsuliyyəti problemi tədqiq edilmişdir.

Dərs vəsaiti hüquqşünaslar, hüquq mühafizə orqanları əməkdaşları, hüquq təhsili verən ali təhsil müəssisələrinin bakalavrları, magistrləri və bu sahədə tədqiqat aparan şəxslər, habelə hüquq ictmaiyyəti üçün nəzərdə tutulmuşdur.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# Koronavirus xəstələri saxlanılıb

**Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.**

Aprelin 21-dən 27-dək polis əməkdaşları tərəfindən 30 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 12 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov,*
*polis mayoru*

## Aprel ayının 21-dən 27-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 251 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 63 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 242, o cümlədən borclu şəxs qismində axtarışda olan 153 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 16 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 159 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik